# Müsəlman rasional fikir tarixində əxlaq (dəyər) problemi

**Elvüsal Məmmədov**
*AMEA Şərqşünaslıq İnstitutunun aparıcı elmi işçisi, fəl.ü.f.d.*

İslam fikri tarixində etikanın – əxlaqşünaslığın meydana gəlməsi mövzusu, əxlaq nəzəriyyələri kəlamşünaslıq, sufilik və fəlsəfə baxımından öyrənilməlidir.

Orta əsr müsəlman sxolastikasında, yəni kəlamşünaslıqda insan əməllərinin məzmunu, bacarıq (***qüdrət***), iradə və azadlıq mövzuları xüsusi şəkildə öyrənilmişdir. Kəlamşünasların öyrəndikləri əxlaq problemlərinin əsasını insan taleyi ilə əlaqədar olaraq, bəndələrin hərəkətləri (***ə`mali-ibad***) mövzusu təşkil edir. "İradə və seçim", "ədalət", "yaxşı və pis", mənafeyə uyğun və daha çox uyğun gələn" (***səlah*** və ***əsləh***) kimi mövzuların öyrənilməsi ətrafında yaranan qızğın mübahisələr, həm də əxlaqla əlaqəli məsələlərə münasibətdə fərqli görüşlərin meydana çıxmasına səbəb olmuşdu[32]. İnsan taleyi və onunla əlaqəli surətdə öyrənilən dini və əxlaqi problemlər mötəzili, əşəri və maturidi kəlamçıları tərəfindən tədqiqat obyekti seçilmişdi[33].

Mötəzili iddiaların mərkəzində ədalət məfhumu dayanır. Bu məktəbin nümayəndələri Allaha aid əxlaq və kamillik keyfiyyətini nöqsanlardan qorumaq, insanların dini və əxlaqi öhdəliklərini məntiqi cəhətdən əsaslandırmaq üçün ədalət konsepsiyasından çıxış edirdilər. Onlar göstərirdilər ki, Allahın heç nəyə ehtiyac hiss etmədən meydana çıxardığı işlər insanların yaxşılığı üçündür. İlahi əməllərə yaxşı və ədalətli olmaq, özündə hikmət ehtiva etmək xasdır. Odur ki İlahi İradə və Hikmət insanların mənafeyinə xidmət edən işləri nəzərdə tutur. Ümumiyyətlə, mötəzili nöqteyi-nəzərində iddia edilir ki, mənafeyə uyğun və daha çox uyğun gələni etmək Allah üçün zəruridir[34]. Nəticə etibarı ilə mötəzililər iradə azadlığı ideyasını müdafiə edirdilər. Belə bir azadlıq mövcud deyilsə, onda İlahi ədalət və Hikmət ətrafında müəyyən şübhələr meydana çıxa bilər. Bu o deməkdir ki, hərəkətlərində sərbəst olmayan bir insana dini və əxlaqi öhdəliklər qarşısında daşıdığı məsuliyyət üzündən mükafat, yaxud cəzanın verilməsi mənasız görünür.

Mötəzili kəlamşünasları göstərirdilər ki, Allahı tanımaq, əmanəti geri qaytarmaq, borcları ödəmək, nemətə görə şükür etmək kimi məsələlərin yaxşı və zəruri olduğunu düşünməklə də dərk etmək mümkündür[35]. Deməli, bir sıra əxlaq dəyərlərini rasional yolla müəyyənləşdirmək istisna edilmir. Amma dəyərlər haqqında rasional biliklərin mötəbər olmağı üçün həmin dəyərlərin dəyişməz, sabit məzmunda olmağı zəruridir. Deməli, mötəzililər əxlaq dəyərlərini nisbi hesab etmir və iddia edirdilər ki, ağıl və din bu və ya digər əməlin, hərəkətin dəyər məzmununu müəyyənləşdirmir, əksinə, onda mövcud olan ontik keyfiyyətləri aşkara çıxarır. Beləliklə, yaxşı və pis, vəzifə və öhdəlik məsələlərinə aid nəzəri rasional biliklər hissi-təcrübi biliklər qədər mötəbərdir[36].

Mötəzili kəlamşünaslığının şər probleminə münasibəti də maraq doğurur. Onlara görə, potensial şərin Allaha aid edilməsi, İlahi ədalət və Hikmətə xələl gətirmir. Çünki Allah bəndələrinin mənafeyi üçün faydalı və yaxşı şeyləri yaratdığı kimi eyni məqsədlə onlara müsibət də göndərə bilər. Bu müsibətlər ya bir günahın qarşılığıdır, ya da özündə fərqinə vardığımız, yaxud varmadığımız bir xeyri ehtiva edir. Bununla da Allah ya bu dünyada bizi şərdən, pisliklərdən qorumaq, ya da axirətdə qarşılığını vermək istəyir, – bütün bunlar isə bizim mənafeyimiz üçündür[37].

Mötəzili ədəbiyyatında şərin iki formasından söz açılır: əxlaqi və təbii şər. İnsan əxlaqla əlaqəli yanlış hərəkətləri etməkdə sərbəstdir, ixtiyar sahibidir. Xəstəlik, əlillik, qıtlıq (quraqlıq

---

[32] Mustafa Çağrıcı. Ahlak // İslam Ansiklopedisi: 44 cilddə, II cild, İstanbul, 1989, səh. 3.
[33] Yenə orada, səh. 4.
[34] Məhəmməd Qəzali. Dini-mədəni islam fikri: tənqidi mülahizələr / tərcümə edən: Elvüsal Məmmədov. Bakı, 2012, səh. 153.
[35] Mustafa Çağrıcı. İslam Düşüncesinde Ahlak. İstanbul: "Dem Yayınları" 2006, səh. 99.
[36] Mustafa Çağrıcı. Ahlak // İslam Ansiklopedisi: 44 cilddə, II cild, İstanbul, 1989, səh. 4.
[37] Yenə orada, səh. 4-5.

və s.) və sairdə ifadə olunan təbii şərdə isə insan iradəsindən söz gedə bilməz, bu, Allahla əlaqəli məsələdir[38].

Əşəri kəlamşünaslığında da şər problemi öyrənilmişdir. Kəlam alimləri problemi bu cür qoyurdular: Allahın əməlləri xeyirdirmi? Şər Onun istəyi və iradəsi iləmi mövcuddur?

Əşərilik məktəbinin nümayəndələri göstərirdilər ki, Allahın əmr etdiyi şeyin yaxşı olmağını həmin əmr zəruri edir. Yəni, şeylərdəki yaxşı və xeyir məzmununu ilahi əmr şərtləndirir. Dinin əmr və qadağalarından əvvəl nə xeyir, nə də şər vardır. Bir əməlin yaxşı, yaxud pis olmağını Allah müəyyənləşdirir, həmin əməl özlüyündə yaxşı, yaxud pis deyildir[39].

Əxlaqi davranışların insan zəkası ilə əlaqəsi mövzusunda əşəri iddianın ümumi təsviri budur ki, ağıl müstəqil formada mənəvi dəyərləri müəyyənləşdirə bilmir; bir şeyin yaxşı, pis, təhlükəli, yaxud icazəli olmağı ilə əlaqəli hökm konkret dini dəlil (***nəss***) əsasında təsis edilə bilər.

Əşərilər mötəzililərdən fərqli olaraq, əxlaqi dəyərlərin rasional yollarla müəyyənləşdirilməsini qeyri-mümkün hesab edir, öz iddialarını belə əsaslandırırlar ki, heç bir təhsil və tərbiyə görməyən, təbii şəraitdə boya-başa çatan şəxs 2+2=4 kimi təcrübi bilikləri təkbaşına qazana bildiyi halda, yalan danışmağın pis, doğru danışmağın isə yaxşı davranış olduğunu rasional yolla təyin edə bilmir. Əxlaqi dəyərlərin mötəbərliyi onların işlənmə intensivliyi ilə əlaqəlidir[40].

Maturidi kəlamçılarına gəlincə, mötəzililərdən fərqli olaraq bildirirdilər ki, insanların mənafeyinə uyğun əməlləri meydana gətirməsi Allah üçün məcburi deyildir. Onlar həmçinin iddia edirdilər ki, insan zəkası əxlaq dəyərlərini qavramaq qabiliyyətində yaradılmışdır[41].

Sufilikdə əxlaq mövzusu xüsusi yer tutur. "Təsəvvüf bütövlükdə əxlaq təlimidir" – desək yanılmarıq. Sufilikdə öyrənilən başlıca mövzu səmimi dindarlıq və əxlaqdır.

İslamda əxlaq fəlsəfəsinin – etikanın mənbələrindən biri kimi çıxış edən sufilik əxlaqı nəfslə mübarizə və azadlığa qovuşma təlimidir. Sufilikdə azadlıq dedikdə insanı nəfsi istək və eqoizmdən xilas etmək nəzərdə tutulur. Sufilik təcrübəsi adlandırılan şey, əslində mənəvi-ruhi halətləri ifadə edir ki, buna da müəyyən mümarisələr, yaxud sufilərin öz dili ilə desək, riyazət və mücahidə yolu ilə nail olmaq mümkündür.

Sufilikdə məfhumlara tamamilə fərqli don geyindirilir və belə bir məzmun redaktəsinin fonunda qarşımıza əxlaq və mənəviyyat təlimi çıxır. Məsələn, xorasanlı sufi və təfsir alimi Məhəmməd Süləmi (937-1021) sufilik təliminin əsas mövzularından sayılan kasıblıq məfhumuna belə bir tərif vermişdi: "Kasıblıq heç bir şeyin insana sahib olmamağıdır"[42].

Göründüyü kimi, maddi imkanlardan məhrumluq mənasında işlədilən kasıblıq anlayışı sufilik əxlaqında mənəvi-əxlaqi azadlıq hesab edilir. Çünki əxlaqi kamillik sufilikdə azadlığın özüdür[43].

Sufilik islam əxlaq fəlsəfisində ona görə mühüm yer tutur ki, mənəvi azadlıq konsepsiyasından çıxış etmiş, azadlıq məfhumuna yeni məzmun qazandırmışdır.

Sufiliyi, ümumi götürdükdə, əməli əxlaq təlimi hesab etmək mümkündür. Bu təlimdə din əxlaqın fonunda qiymətləndirilir.

Müsəlman fəlsəfəsinə gəlincə, Yaqub əl-Kindi, Əbubəkr ər-Razi, Farabi, İbn Miskəveyh, İbn Sina, İbn Baccə, İbn Tüfeyl, İbn Rüşd, Nəsirəddin Tusi və başqaları əxlaq elmini fəlsəfi müddəalar əsasında öyrənmişdilər. Müsəlman filosofları əxlaq mövzusuna dair ayrıca əsərlər qələmə almışdılar. Yaqub əl-Kindinin "Kədəri dəf etməyin üsulları haqqında traktat"[44], Əbubəkr ər-Razinin "Kasıblar və yoxsullar", İbn Miskəveyhin "Əxlaqı tərbiyə", Farabinin "İdeal şəhər əhalisinin görüşləri", "Hökmdarların ədəb-ərkanı", İbn Rüşdün "Fəlsəfə ilə şəriətin əlaqəsinə dair yekun söz"[45], Nəsirəddin Tusinin "Əxlaqi-nasiri" əsərləri bu istiqamətdə yazılmış fundamental kitablardır.

İslam fəlsəfi fikrində əxlaq nəzəriyyəsinin yaranması və sistemləşməsində kənar təsirlər, xüsusən qədim yunan fəlsəfəsinin təsiri istisna

[38] Mustafa Çağrıcı. Ahlak // İslam Ansiklopedisi: 44 cilddə, II cild, İstanbul, 1989, səh. 4.

[39] Məhəmməd Şərif Əhməd. İslama yeni baxış / tərcümə edən: Elvüsal Məmmədov. Bakı, 2011, səh. 199.

[40] Mustafa Çağrıcı. Ahlak // İslam Ansiklopedisi: 44 cilddə, II cild, İstanbul, 1989, səh. 5.

[41] Mustafa Çağrıcı. İslam Düşüncesinde Ahlak. İstanbul: "Dem Yayınları", 2006, səh. 106-107, 108.

[42] Müfit Selim Saruhan. İslam Düşüncesinde Ahlak İlmi // "Eskiyeni", say 28, 2014, səh. 63.

[43] Mustafa Çağrıcı. İslam Düşüncesinde Ahlak. İstanbul: "Dem Yayınları", 2006, səh. 116-119.

[44] Yenə orada, səh. 123.

[45] Xalid əs-Səmədi. Tərbiyə sistemində islam dəyərləri: islam dəyərlərinin və möhkəmləndirilməsi mexanizminin öyrənilməsi. Ribat, 2008, səh. 15.

edilmir. Bəzi müəlliflər göstərirlər ki, kənardan təsirlənmə müsəlman filosofların əxlaq nəzəriyyəsinin orijinallığına maneə təşkil etmir[46].

Müsəlman filosofları elmləri təsnif edərkən əxlaq elmini də ayrıca sahə kimi göstərirdilər. Məsələn, fəlsəfəni rasional (nəzəri) və əməli olmaqla iki qrupda təsnif edən ilk müsəlman filosofu Yaqub əl-Kindi əxlaq elmini əməli fəlsəfə qrupuna daxil etmişdi[47]. Həmçinin o, Platondan təsirlənərək, əxlaq mövzusunu fəlsəfənin qarşısında duran vəzifə kimi göstərmişdi[48]. Kindi yaradıcılığında "nəfs" problemi də platonçu məzmunda öyrənilmiş, yunan filosoflarının fəzilət anlayışı olduğu kimi əxz edilmişdir. Kindi fəzilət problemini ifrat və biganəlik baxımından öyrənərkən Aristotelin "qızıl orta" qaydasına istinad etmişdir[49].

Digər filosof Əbubəkr ər-Razinin əxlaqa dair görüşləri maraq doğurur. O, iddia etmişdir ki, mənəvi xəstəliklərdən müalicə kamillik doğurur və bunun yolu zəka və fəlsəfədən keçir. Təbii ki, bu iddia ilk dəfə Razi tərəfindən səsləndirilməmişdir. Platonun "Gorgi" dialoqunda göstərilir ki, pis (şər) sağlam davranış olmayıb, mənəvi (ruhi) xəstəlikdir və fəlsəfə ilə müalicə edilməlidir[50]. Ümumiyyətlə, Razinin əxlaqa dair görüşlərinə Platon etikasının təsiri böyükdür.

"İkinci müəllim" ləqəbi ilə məşhur olan Əbunəsr əl-Farabi də əxlaqı əməli elmlər kateqoriyasında təsnif etmişdir. Onun əxlaqa dair görüşlərinə rasionalizm xasdır. O deyirdi ki, əxlaq baxımından kamilləşmək üçün əqli mümarisələr tələb olunur.

Farabi özünün əxlaqa dair görüşlərində yunan peripatetizmi və yeniplatonçuluq təlimindən təsirlənmişdir. Belə ki Aristotel kimi o da göstərmişdir ki, xoşbəxt olmağın birinci şərti rasional fəaliyyət, yəni düşünməkdir. Farabi xoşbəxtliyin ikinci şərti kimi zahidanə həyatın, Aktiv Ağılla əlaqə və Allaha oxşamanın zəruriliyini iddia edirdi. Bu yerdə ona Platon və Plotinin təsiri aşkar görünür[51].

İbn Sinaya gəlincə, əxlaqa dair əsas fikirlərini "Əxlaq elmi", "Şəfa", "Nicat" və "İşarələr" kitablarında, "Dünya və axirət", "Fəlsəfənin mənbələri", "Ərşiyyə" traktatlarında toplamışdır. Bu əsərlərdə insanın mahiyyəti, xeyir və şər, xoşbəxtlik mövzuları işlənmişdir.

İbn Sina fəlsəfəni üç qola ayırmış, bu qollardan birini "əxlaq fəlsəfəsi" (***əl-hikmət əl-xülqiyyə***) adlandırmışdır. O, fəlsəfənin bu qoluna belə bir tərif vermişdi: İnsan ruhunun bəzənməli olduğu müsbət məziyyətləri (***fəzail***) və təmizlənməsi tələb olunan mənfi xüsusiyyətləri (***rəzail***) təmin edən təlim.

İbn Sina əxlaqın mənbəyi kimi dini göstərmişdir[52].

Müsəlman dünyasında əxlaq mövzusunda yazılmış şah əsər – "Əxlaqı tərbiyə" əsərinin müəllifi İbn Miskəveyh əxlaqla əlaqəli bəzi tərif və təsniflərdə yunan filosoflarından təsirlənsə də[53], həmin filosofların ideyalarını islama müvafiq şəkildə iqtibas gətirmiş və izah etmişdir. Məhz bu səbəbdən onun əxlaqla əlaqəli görüşləri müsəlman dünyasında rəğbətlə qarşılanmışdır[54].

İbn Miskəveyh dəyərlər problemini şəxsiyyəti əmələ gətirən müsbət keyfiyyət və məziyyətlər kontekstində öyrənmişdir. O göstərirdi ki, nəfsin tərbiyə edilməsi nəticəsində xüsusi mənəvi vəziyyət yaranır; bu mənəvi vəziyyət nəticəsində iradi olaraq, bişüur formada hərəkət və davranışlar meydana çıxır, xasiyyətin əsası, fitrət təzahür edir, sonradan qazanılan keyfiyyətlər hasilə gəlir. Bir sözlə, İbn Miskəveyhin yaradıcılığında dəyərlər problemi tərifəlayiq və pislənən əməllər, yaxud xeyir və şər hərəkətlər (***fəzail*** və ***rəzail***) daxilində öyrənilir. O, müsbət keyfiyyətləri dörd yerə bölürdü: müdriklik, ədalət, cəsarət və iffət. Pis əməllər isə müsbət keyfiyyətlərin əksi olaraq nəzərdən keçirilir[55]. Əslində bu təsnif qədim yunan əxlaq fikrindən əxz edilmişdir. Məsələn, Platonun əxlaq fəlsəfəsində bütün müsbət məziyyətlərin mənbəyi olaraq dörd başlıca keyfiyyətdən danışılır: müdriklik, ədalət, cəsarət və iffət. Bu təsnifat, ümumiyyətlə Orta əsr, xüsusən müsəlman fəlsəfəsinə dərin təsir göstərmişdir.

---

[46] Bax: Müfit Selim Saruhan. İslam Düşüncesinde Ahlak İlmi // "Eskiyeni", say 28, 2014, səh. 64.
[47] Yenə orada.
[48] Mustafa Çağırıcı. İslam Düşüncesinde Ahlak. İstanbul: "Dem Yayınları", 2006, səh. 125-126.
[49] Yenə orada, səh. 131.
[50] Yenə orada, səh. 133-134.
[51] Yenə orada, səh. 173.
[52] Yenə orada, səh. 201-202.
[53] Ətraflı məlumat üçün bax: İbn Miskeveyh. Tehzibu`l-Ahlak / çevirenler: A. Şener, C. Tunç. İstanbul, 2013, səh. 34-49; 215-242.
[54] Mehmet Aydın. Ahlak (İslam Felsefesi) // İslam Ansiklopedisi: 44 cilddə, II cild, İstanbul, 1989, səh. 11.
[55] Əhməd ibn Məhəmməd ibn Miskəveyh. Təhzib əl-əxlaq. Beyrut, 2011, səh. 243.

Dəyərlər mövzusu böyük islam filosofu İbn Rüşdün də yaradıcılığında öyrənilmişdir. O, xeyir mövzusunu tədqiq etmiş, onu ayrıca dəyər kateqoriyası daxilində nəzərdən keçirmişdir. İbn Rüşd problemi bu cür qoyurdu: Dəyərlər obyektiv, yoxsa subyektivdir? Onun fikrincə, dəyərlər obyektiv olaraq mövcuddur. Yəni, şeylərin təbiəti – dəyəri insan düşüncəsindən asılı olmayaraq mövcuddur. Təbii ki, dəyərlərin obyektiv təbiəti haqqında olan görüşlərində İbn Rüşd Yunan fəlsəfəsindən təsirlənmişdi. Çünki Platon və Aristotel təzahürlə mahiyyəti, forma və məzmunu, substansiya və aksidensiyanı bir-birindən fərqləndirirdilər. Bu nöqteyi-nəzərə görə, fərdlərin, hətta çoxluğun hər hansı bir mövzunun müsbət, yaxud qərəzsiz olduğunu iddia etməsi həmin şeyin müsbət, yaxud qərəzsiz olmağını təmin etmir[56].

İbn Rüşd göstərirdi ki, tərifəlayiq keyfiyyətlər (***fəzilət***) nəzəri və əxlaqi olmaqla iki qrupa bölünür. Nəzəri keyfiyyətlər elmi-təcrübi, rasional biliklərdir, insanlar bu biliklərdəki qayda-qanun və meyarlara tabe olmalıdırlar. Əxlaqi müsbət keyfiyyətləri isə şəriət hökmlərində ifadə edilmişdir və insanlardan tələb olunur ki, şəriət hökmlərində göstərilmiş əmr və qadağalara riayət etsinlər. İbn Rüşd bəzi görüşlərində ondan əvvəl yaşamış filosoflardan fərqlənir. Məsələn, o, iddia edirdi ki, əxlaqi müsbət keyfiyyətlər anadangəlmə deyildir, sonradan qazanılandır. Eyni hala nəzəri keyfiyyətlərdə də rast gəlinir: bu keyfiyyətlər öyrənmə yolu ilə qazanılır, kəsb olunur. Əxlaqi davranışlar şüurlu formada meydana çıxır və fərd düşünməklə, rasional qaydada əxlaqlı hərəkət edir.

İbn Rüşd bildirirdi ki, iradi bacarıq və qabiliyyətlərin formalaşması və möhkəmlənməsində əxlaq tərbiyəsinin əhəmiyyəti böyükdür. Nəticədə belə bacarıqlar insanda dərrakə və vərdişlərin sayəsində kamilləşir[57].

Əgər biz Orta əsr müsəlman fəlsəfəsində əxlaqın hansı aspektdə öyrənildiyini təsvir etmək istəsək, gəlinən nəticələr aşağıdakı kimi olacaqdır:

Əxlaq din və siyasət, eləcə də psixologiya ilə vəhdətdə götürülmüşdür. Müsəlman filosofları inanırdılar ki, "əxlaq nədir" sualından əvvəl "insan nədir" sualına cavab tapmaq lazımdır. Onlar əxlaq kontekstində can (***nəfs***) və formalarını (törəyən, qidalanan, böyüyən can – bitki təbiətli (***nəbati***) can; ayrı-ayrı məfhumları dərk edib öz iradəsi ilə hərəkət edən can – heyvan təbiətli (***heyvani***) can; ümumi anlayışları, mücərrəd (abstrakt) məfhumları qavrayan, əqli aktları icra edən, ağıla sahib can – düşünən (***insani***) can)[58], fəzilət və formalarını (müdriklik, ədalət, cəsarət və iffət), xoşbəxtlik, həzz və formaları (cismani və rasional – əqli), iradə azadlığı mövzularını tədqiqat obyekti seçmiş, problemləri əsasən qədim yunan əxlaq fəlsəfəsi əsasında, həm də müəyyən qədər islam məzmunu kəsb etdirməklə izah etmişdilər[59].

Bütün bu ana mövzularla yanaşı, islam əxlaq fəlsəfəsində, həm də digər mövzular: eşq, dostluq, ölüm qorxusunu dəf və digər məsələlər öyrənilmişdi. Bu mövzularda da müsəlman filosofları islamın təlimlərini yunan fəlsəfəsi təlimlərinə müncər etmişdilər. Onların, xüsusən ev təsərrüfatı, ailə əxlaqı (***tədbiri-mənazil***) ilə əlaqəli görüşləri bütövlükdə islama müvafiqdir. Həmçinin onların iman qardaşlığı, bəşəri sevginin ilahi sevgi ilə şərtlənməsi, ölüm qorxusunun axirət inancı ilə dəf edilməsi, əxlaqi xüsusiyyətlər və mənəvi kamilliyin maddi dəyərlərdən üstün tutulması kimi müddəalarında da islam mövqeyi qabarıq görünür[60].

**<u>Elvusal Mammadov</u>**

**The Problem of Morality (Moral value) in the History of Muslim Rational Thought**

***Summary***

The article examines the place of morality in the history of Islamic thought. In this respect, it considers the approach of different disciplines to this issue; including Islamic Theology (kalām), Sufism and Islamic philosophy. Comparing the ideas of Mu'tazilism, Ash'arism and Maturidism which were the founders of the kalām, on this matter, to each other, the author also deals with the viewpoints of Muslim philosophers, such as Razi, Farabi, Ibn Sina, Ibn Miskawayh and Ibn Rushd.

[56] G.F. Hourani. İbn Rüşd'ün İyi ve Kötü Üzerine Görüşleri. Journal of Islamic Research 2015;26(3), səh. 108.

[57] Məhəmməd Əhməd Ənis. Əxlaq tərbiyəsi. Qahirə: "Dar əl-incilu əl-misriyyə", 1994, səh. 46.

[58] Elvüsal Məmmədov. İzahlı islam fəlsəfəsi terminləri lüğəti (nəşr edilməyib).

[59] Bax: Mehmet Aydın. Ahlak (İslam Felsefesi) // İslam Ansiklopedisi: 44 cilddə, II cild, İstanbul, 1989, səh. 12-13.

[60] Yenə orada, səh. 13.